# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 20 (1681) 30 noyabr 2018 - ci il Qiymәti 50 qәpik


# Vladimir Solovyov: Hiss edirdim ki, Prezident İlham Əliyev gün ərzində mətbuatı şəxsən izləyir

**Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə görüşünün təəssüratları barədə danışıb.**

AZƏRTAC xəbər verir ki, Vladimir Solovyov Prezident İlham Əliyevin Rusiya və Azərbaycan mətbuatında baş verənlərdən çox ətraflı məlumatlı olduğunu söyləyib. O, Prezident İlham Əliyevin söhbət zamanı dünyanın müxtəlif ölkələrindən, o cümlədən Rusiyadan bir çox jurnalistlərin soyadlarını çəkdiyini bildirərək deyib: "Hiss edirdim ki, Prezident gün ərzində mətbuatı şəxsən izləyir. İş burasındadır ki, Prezident İlham Əliyev Qərb mediasını ingilis, bizimkini rus, Türkiyə mətbuatını isə türk dilində izləyir. Məhz dil bilikləri sayəsində dövlət başçısının bu cür materialları izləməklə problemi olmur".

Rusiya Jurnalistlər İttifaqının sədri onu da əlavə edib ki, Azərbaycan və Rusiya prezidentlərinin xarakterində bir çox oxşar cəhətlər var. Onlar inanılmaz siyasi üfüqə sahibdirlər. Çətin ki, digər prezidentlər onlarla müqayisə olunsun.



## BU SAYIMIZDA


BÖYÜK ELMİ ŞURADA 2





İranın Təbriz Tibb Elmləri Universitetinin nümayəndə heyəti ATU-nun qonağı olub 3

Azərbaycan Tibb Universiteti ilə Hüquq və İnsan Haqları İnstitutu arasında "Anlaşma Memorandumu" imzalanıb 3



ATU-da mərkəzləşmiş qaydada aralıq qiymətləndirmə aparıldı 3





Stomatologiyanın tədrisində yenilik tətbiq olundu 4

Xroniki obstruktiv ağciyər xəstəliyi ilə mübarizə günü qeyd edilib 3

Türkiyəli professorun məruzəsi ATU-da maraqla qarşılanıb 4

Paytaxtda bütün bölgələri əhatə edən elmi-praktik konfrans keçirilib 4

ATU-da "Qanun" nəşriyyatının kitab sərgisi təşkil olunub 6

Mütəxəssislərimiz Türkiyə Milli Pediatriya Konqresinə qatılıblar 7

ATU-nun doktorantı Təhsil Nazirliyinin nüfuzlu müsabiqəsinin qalibi olub

Təbib



# Böyük Elmi Şurada

**Böyük Elmi Şuranın noyabrın 27-də keçirilən iclasını açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırdı.**

Əvvəlcə "ATU-nun I müalicə-profilaktika fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" haqqında hesabat məruzəsi ilə fakültənin dekanı, dosent Qorxmaz Əhmədov çıxış etdi.

Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolundan danışan fakültə dekanı bildirdi ki, inkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olmuşlar.

O, fakültənin 3-ü nəzəri və 16-sı kliniki olmaqla 19 kafedrasında 443 nəfər professor-müəllim heyətinin çalışdığını dedi: "Əməkdaşlarımızdan 1 nəfər Azərbaycan MEA-nın həqiqi, 1 nəfər müxbir üzvü, 2 nəfər Rusiya TEA-nın həqiqi üzvüdür. Fakültədə 64 nəfər professor, 146 nəfər dosent və 233 nəfər baş müəllim, assistent və müəllim tədrislə məşğuldur. 202 nəfər yardımçı personal təlim-tərbiyə prosesinə köməklik göstərir".

Hazırda 181 qrupda 2158 tələbənin təhsil aldığını, bunlardan 397 nəfərin xarici ölkə vətəndaşı olduğunu söyləyən Q.Əhmədov tədrisin keyfiyyəti və səmərəsini yüksəltmək, hazırlanan gənc mütəxəssislərin tələb olunan bilik və bacarıqlara yiyələnməsini təmin etmək üçün dekanlıq və fakültənin fəaliyyət istiqamətlərindən söhbət açdı.

Hesabat məruzəsində fakültə dekanlığının müntəzəm olaraq tədris prosesinin gedişinə nəzarət etməsinə, tələbələrin dərsə davamiyyətini yoxlamaq məqsədilə tez-tez reydlər keçirməsinə də toxunuldu.

Dekanın sözlərinə görə, son imtahan sessiyasının I-VI kurslar üzrə kəmiyyət göstəricisi 94.19%, keyfiyyət göstəricisi isə 55.29% olmuş, keçən ilin müvafiq semestri ilə müqayisədə kəmiyyət göstəricisi 8.1% artmış, keyfiyyət göstəricisi isə 8.3% azalmışdır.

Son iki il ərzində uğurla fəaliyyət göstərən vahid Apellyasiya Komissiyasının imtahan sessiyası zamanı meydana çıxan xırda narazılıq və şikayətləri mütəşəkkil, operativ və obyektiv şəkildə həll etdiyini diqqətə çatdıran dekan 2017/18-ci tədris ilində davamiyyət kriteriyalarının dəyişərək qayıb limitinin 20%-ə salınmasını və əlavə olaraq mühazirələrdə iştirak etmə faizinin nəzərə alınmasını çox vacib addım kimi dəyərləndirdi.

Hesabatda tədris-metodik işin təkmilləşdirilməsi məsələsi də öz əksini tapdı. Bildirildi ki, son bir il ərzində kafedra əməkdaşları tərəfindən 12 dərslik, 5 monoqrafiya, 19 dərs vəsaiti və 7 metodik vəsait nəşr edilmişdir: "Çox pozitiv haldır ki, artıq bəzi kafedralarımızda dərslik hazırlanarkən kollektiv əməkdən istifadə olunur, yəni bir müəllifin deyil, kafedranın elmi potensialından maksimal dərəcədə istifadə etməklə, vahid tədris vəsaiti yaranır və nəticə etibarı ilə, həm hər bir müəllim tədris etdiyi fənnin yenilənmiş materialını mənimsəyir, həm də tələbələr üçün bir fəndən bir neçə dərsliyin olması problemi tədricən aradan götürülür".

Fakültədə professor-müəllim heyətinin elmi-pedaqoji səviyyəsinin artırılması istiqamətində də müəyyən işlər görüldüyünü deyən Q.Əhmədov bu tədris ilindən etibarən IV və V kurslarda kurasiya sistemi ilə keçən praktiki məşğələlərin artıq kurasiya şəklində deyil, qoşa saat formatında aparıldığını vurğuladı.

O da bildirildi ki, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun dəstəyi ilə 1 qrant layihəsi histologiya, embriologiya və sitologiya kafedrasında uğurla icra olunur: "Bu fondun imkanlarından daha geniş istifadə etmək məqsədəuyğun olardı. Buna bizim elmi potensialımız imkan verir.

Hesabat dövründə kafedra əməkdaşları tərəfindən 413 elmi məqalə və 483 tezis çap olunmuşdur. Məqalələrin 32.44%-i xarici ölkə məcmuələrində dərc edilmişdir. Bu dövrdə 4 tibb üzrə elmlər doktoru və 20 tibb üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə olunmuş, 42 doktorluq, 105 fəlsəfə doktoru dissertasiyası üzrə tədqiqatlar davam edir".

Hesabatda tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunmasına və onlarda milli qürur, vətənpərvərlik ruhunun formalaşdırılması, torpaqlarımızın azadlığı uğrunda ardıcıl mübarizə əzmi, mənəvi sərvətlərimizə, ekoloji mühitə qayğıkeş münasibətin aşılanmasına da yer ayrıldı.

Təhsilin keyfiyyət təminatı standartlarından birinin monitorinq və onun tərkib hissəsi olan tələbə məmnunluğu olduğunu vurğulayan Q.Əhmədov çıxışının sonunda fakültə kollektivinin bundan sonra da bütün bilik və bacarıqlarını yüksək ixtisaslı, mənəvi cəhətdən saf, milli dövlətçiliyimizə sədaqətlə xidmət edən mütəxəssislərin hazırlanmasına sərf edəcəyinə əminliyini söylədi.



Məruzə ətrafında çıxış edənlər hesabatı qənaətbəxş qiymətləndirərək müzakirə olunan məsələyə münasibət bildirdilər. I mamalıq-ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva müəllimlərin bal-reytinqinin qiymətləndirilməsində tələbələrin rolunu nisbətən azaltmağı təklif etdi.

I daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov ürək, qan-damar sistemi xəstəliklərinin proqramını özündə tam əhatə edən "Klinik kardiologiya" adlı dərs vəsaitini çap etdirdiklərini, eyni zamanda bir neçə fənn üzrə dərs vəsaitinin yazılması prosesinə başlanıldığını söylədi. O, qayıb limitinin tətbiq edilməsi nəticəsində mühazirənin keyfiyyətinə tələbatın artdığını da diqqətə çatdırdı.

Tətbiqinə yeni başlanılan aralıq imtahanların keçirilməsindən, testlərə açıq sualların salınmasının üstünlüklərindən danışan histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov bildirdi ki, bu zaman tələbələr özləri də layiq olduqları qiyməti aldıqlarını hiss edirlər.

Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Nadir Zeynalov I müalicə-profilaktika fakültəsi ilə işgüzar münasibətləri asanlaşdıran amillərdən söhbət açdı.

Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva universitetimizdə çox istedadlı, fikirlərini xarici dildə sərbəst ifadə edə bilən tələbələrin olmasını məmnunluqla vurğuladı.





Müzakirələrə yekun vuran rektor tədrisin təşkilində və nəzarətində dekanlığın üzərinə düşən vəzifələrə diqqət yönəldərək ilk növbədə kafedralarla sıx əlaqələrin vacibliyini önə çəkdi. Qeyd etdi ki, bu əlaqələr tədris prosesinin təşkilində və nəzarətində, tələbənin probleminin yerindəcə dərhal həll olunmasında özünü mütləq göstərməlidir: "Bildiyiniz kimi, artıq semestrin ortasındayıq. Bu semestr ərzində bir çox yeniliklərin tətbiqinə başlanılıb. Kurasiya sistemindəki yeniliklə əlaqədar dekanlıqlar və rektorluq bir çox problemlərlə rastlaşıb. Tələbələrin haqlı iradları əsasən cədvəllərin bir qədər avtomatik, köhnə üsulla, necə var elə də tərtib olunması ilə bağlıdır. Cədvəllərin tərtibi zamanı nəzərə alınmalıdır ki, kafedralarımızın bazaları bir yerdə yox, 2, hətta 3-4 yerdə yerləşir. Bu məsələnin diqqətdən kənarda qalması tələbənin birinci dərsi klinikada, ikinci dərsi tamamilə başqa bir bazada, üçüncü dərsi yenə klinikada keçməsi ilə nəticələnir və narazılıq yaradır. Biz operativ şəkildə 17-yə qədər qrup birləşməsinin cədvəlində dəyişiklik etdik və bu problemləri bir qədər nizamladıq. Bütün dekanlıq işçilərinə üzümü tutub demək istəyirəm ki, bizim əsas işimiz problemlərin qabaqcadan proqnozlaşdırılmasına və onların profilaktikasına yönəlmelidir. Hesab edirəm ki, elektron jurnalın yaranması və istifadəyə verilməsi bu məsələlərdə bizə böyük köməklik göstərəcək".

Testlərin yazılması və imtahanların keçirilməsində də dekanlıqların xüsusu rolunun olduğunu vurğulayan G.Gəraybəyli artıq bu ildən tətbiqinə başlanılan bal-reytinq attestasiyasının ilk nəticələri barədə fikirlərini də şura üzvləri ilə bölüşdü. 140 nəfərə yaxın müəllimin attestasiyadan keçdiyini, 7-8 nəfərin bal-reytinq nəticələrinin uğursuz olduğunu diqqətə çatdıraraq Elmira xanımın çıxışında səslənən təklifə də münasibət bildirdi: "Qəbul etsək də, etməsək də prinsiplər dəyişibdir. Bir vaxtlar universitet tələbələrdən asılı deyildi. İndiki durumda isə hər birimiz tələbələrdən daha çox asılıyıq. Bu gün tələbə bizim üçün yox, biz tələbə üçünük. Bu nöqteyinəzərdən bizim işimizə tələbələrin qiymət verməsi təbii qarşılanmalıdır. Dünyada təsdiq olunmuş xüsusi şkalalar, xüsusi qiymətləndirmə üsulları var ki, bunların vasitəsilə tədrisin və ayrı-ayrı kafedraların işini qiymətləndirmək mümkündür. Mən inanmıram ki, hansısa bir faizi istisna olmaqla, müəllimlərin bal-reytinq sorğusunda iştirak edən tələbələrin hamısı qərəzlidir".

G.Gəraybəyli bal-reytinq attestasiyasının keçirilməsində dekanlıqların rolunu xüsusi vurğulamaqla yanaşı, gələcəkdə daha çox tələbənin sorğuya cəlb edilməsi ilə müəllimin ortaq reytinq balının müəyyənləşəcəyini də söylədi.

Beynəlxalq təhsildə tələbəyə fərdi yanaşmanın əsas kriteriyalardan biri kimi qəbul edildiyini deyən rektor bu sahədə mövcud olan problemləri də şura üzvlərinin nəzərinə çatdırdı. Bəzi müəllimlərin öz fəaliyyətlərini öyrətməkdə yox, soruşmaqda görməsini ciddi tənqid edən rektor aralıq imtahanları zamanı bir neçə kafedrada testlərə daha çox vaxt aparan sualların salınmasını "kiçik sobataj" adlandırdı.

Yekun çıxışında kafedra müdirlərinin seçkisində alternativ namizədlərin olmasının, elmi işlərin, o cümlədən dissertasiyaların təsdiqi zamanı problem komissiyasının, fakültə elmi şurasının rolunun zəruriliyinə toxunan universitet rəhbəri bir daha vurğuladı ki, bütün hallarda əsas məqsəd təhsilin keyfiyyətini yüksəltməkdir.

ATU-da "qonaq professor" (visiting professor) vəzifəsinin təsis edilməsini, elmlər doktoru işinin mövzusunu və elmi məsləhətçisini, dissertasiya işinin adının dəyişdirilməsini təsdiqləyən, xarici dillər kafedrasının professoru, filologiya ü.e.d. Tamilla Xəlilovanı kafedrada məsləhətçi-professor vəzifəsinə seçən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# ATU-da mərkəzləşmiş qaydada aralıq qiymətləndirmə aparıldı

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli sözügedən ali təhsil ocağının İmtahan Mərkəzində keçirilən aralıq qiymətləndirmənin gedişatı ilə tanış olub.**



Rektor G.Gəraybəyli prosesə nəzarət edib, işçi heyəti ilə birgə imtahanı izləyib. İmtahan bitdikdən sonra isə tələbələrlə söhbət edib, onların fikirləri ilə maraqlanıb. Rektor aralıq qiymətləndirmə metodunun bu ildən etibarən ilk dəfədir ki, I kurslar üçün keçirildiyini bildirib. O, imtahanda iştirak edən tələbələrə uğurlar diləyib.

Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov imtahan barədə məlumat verib. Qeyd edib ki, 30 qrup I müalicə-profilaktika, 19 qrup II müalicə-profilaktika, 19 qrup stomatologiya, 13 qrup əczaçılıq, 4 qrup ictimai səhiyyə, 3 qrup isə hərbi-tibb fakültəsinin I kursunda təhsil alır: "Əmrə düşən tələbə sayı 1238 nəfərdir. I müalicə-profilaktika fakültəsində 6, II müalicə-profilaktika fakültəsində 5, ictimai səhiyyə fakültəsində 6, hərbi-tibb fakültəsində 5, stomatologiya fakültəsində 7, əczaçılıq fakültəsində isə 8 fənndən tələbələr aralıq qiymətləndirmədə iştirak edirlər. Kompüterlərin sayını nəzərə alaraq, gün ərzində 6 dəfə - 8:30, 9:20, 10:30, 11:20, 12:30, 13:20-də tələbələr, hər dəfə 220 tələbə olmaqla aralıq qiymətləndirmədə iştirak edir. Bunlardan insan anatomiyası və tibbi terminologiya, tibbi biologiya və genetika, ümumi histologiya, embriologiya və sitologiya, ümumi kimya fənnindən, eləcə də biofiziki və bioüzvi kimya fənlərindən gizli suallar olub".

K.Yaqubov bildirib ki, tələbələr yarım saat ərzində 20 suala cavab veriblər. Bu suallar tələbələrin sırf bu semestrdə keçdikləri dərslər əsasında tərtib olunub: "Aralıq imtahanları bitdikdən sonra tələbələrin qiymətləri artıq elektron jurnala köçürülür. Tələbənin özü, qrup nümayəndəsi və fakültə rəhbərliyi həmin qiymətləri yoxlaya bilirlər".

# İranın Təbriz Tibb Elmləri Universitetinin nümayəndə heyəti ATU-nun qonağı olub

**Noyabrın 23-də İranın Təbriz Tibb Elmləri Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub.**



Nümayəndə heyətini qəbul edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli İranın ali təhsil ocaqları ilə əməkdaşlıq əlaqələrini genişləndirdiklərini bildirib. Rektor bundan öncə İran İslam Respublikasının başqa bir universitetinin əməkdaşları ilə də görüşdüyünü xatırladıb: "Biz artıq İranın digər universitetilə də əməkdaşlığa başladıq. İranın ali təhsil ocaqları ilə əlaqələrimizi genişləndiririk. Ümid edirəm ki, bu görüşdən sonra sizin universitetlə də fəal işləyəcəyik. Həm tədris, həm də klinik yönümlü qarşılıqlı əməkdaşlıq edəcəyik. Ən əsası odur ki, sizinlə dil problemi olmayacaq və bu, çox böyük faktordur".

Professor G.Gəraybəyliyə təşəkkür edən İran İslam Respublikasının ölkəmizdəki səfirinin birinci müşaviri M.Rıza Bagheripur gələcəkdə daha sıx əməkdaşlıq edəcəklərindən məmnunluğunu bildirib: "İranın və Azərbaycanın səhiyyə nazirləri arasında görüş keçirilib.

Görüşdə iki ölkə arasında səhiyyə sahəsinə aid münasibətlərin genişləndirilməsi, yeni əlaqələrin qurulması məsələləri müzakirə edilib. Biz də həmin görüşdən ilhamlanaraq buradayıq. Əminəm ki, bu əməkdaşlıq münasibətləri hər iki ölkənin universitetləri üçün faydalı olacaq".

Təbriz Tibb Elmləri Universitetinin tədris işləri üzrə prorektoru Dr. Ali Taghizadieh təmsil etdiyi universitet haqqında məlumat verib. O bildirib ki, adıçəkilən universitet Təbrizdə bir nömrəli ali təhsil ocağı hesab edilir: "Təbriz Tibb Universitetində zəngin biliyə malik professor-müəllim heyəti var. Bir çox ölkələrdən xarici tələbələr burada təhsil alırlar. Biz sizinlə həkim, müəllim və tələbə mübadiləsi etməyə hazırıq. Xüsusilə də, sizin koxlear implant, uşaq cərrahı həkimlərinizi tanımaq istərdik".

Bakıya dəfələrlə gəldiyini deyən İran Tibb Universitetləri Konsorsiumun rəhbər müavini Dr. Saeid Aslanabadi bu səfərin daha səmərəli olacağına inandığını qeyd edib. Onun sözlərinə görə, əgər universitet mütəxəssisləri arasında qarşılıqlı əlaqə yaranarsa, bunun hər iki ölkənin tibb sahəsi üçün müsbət nəticəsi olar.

Qonaqlara təşəkkür edən G.Gəraybəyli qarşılıqlı əməkdaşlığın vacibliyini vurğulayıb. O, bildirib ki, ATU-nun rezidentləri bir çox ölkələrə, xüsusən də, Türkiyə və Almaniyaya rotasiyaya gedirlər. Amma İranın tibb univesitetlərinin səviyyəsi haqda geniş məlumatları olmadığından, rezidentlər bu ölkəyə müraciət etmirlər: "Məncə, bu istiqamətdə də işlər aparılmalıdır. Bizim Tədris Cərrahiyyə Klinikamızda nadir cərrahi əməliyyatlar icra olunur. Təbii ki, hər dəfə tələbələri ordan bura, burdan ora aparmaq mümkün deyil. Amma indi texnika çox inkişaf edib. Biz teleyayım edə bilərik. Videokonfransın köməyi ilə bizim tələbələr sizin, sizin tələbələr isə bizim əməliyyatı canlı izləyə bilərlər".

Qeyd edək ki, görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov da iştirak edib. Görüşdən sonra qonaqlar ATU-nun klinikaları ilə tanış olublar.

# Azərbaycan Tibb Universiteti ilə Hüquq və İnsan Haqları İnstitutu arasında "Anlaşma Memorandumu" imzalanıb

**29 noyabr 2018-ci il tarixdə AMEA Hüquq və İnsan Haqları İnstitutu ilə Azərbaycan Tibb Universiteti arasında hüquq elminin yeni sahəsi – tibb hüququnun tələbələrin tədris proqramına daxil edilməsi üzrə əməkdaşlıq haqqında memorandum imzalanıb.**



Tədbirdə çıxış edən Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq elmləri doktoru Aytən Mustafazadə memorandumun imzalanmasının hər iki qurumun gələcək inkişafı, eləcə də tibb hüququ elminin tərəqqisi baxımından əhəmiyyətini vurğulayıb. Bildirib ki, tibb hüququnun tədris edilməsində əsas məqsəd həkim-pasiyent münasibətlərinin nizamlanmasının hüquqi əsaslarını təmin etməkdir.

"Tibb sahəsində fəaliyyət göstərən mütəxəssislər və həkimlər öz hüquqlarını bilməlidirlər" – deyən alim həkim-pasiyent münasibətlərinin tənzimlənməsində bu amilin mühüm rolu olduğunu deyib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli isə çıxışında son zamanlar rəhbərlik etdiyi qurumda mühüm islahatların aparıldığını, bu ali məktəbdə tədris proqramlarının beynəlxalq səviyyəyə uyğunlaşdırılmasını, dünya təcrübəsinin öyrənilməsinin əsas hədəflərdən olduğunu bildirib.

Tibb hüququnun öyrədilməsinin vacibliyini qeyd edən rektor bu fənnin universitetin tədris proqramına daxil edilməsinin yaxın gələcəkdə tələbələrin bilik səviyyələrinin artırılması və yüksək ixtisaslı yeni kadrların yetişdirilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

O, ATU-nun magistratura pilləsinin tədris proqramına yeni "Tibbi menecment" ixtisasının daxil edilməsinin nəzərdə tutulduğunu da diqqətə çatdırıb.

Tədbirdə, həmçinin iki qurum arasında tibb sahəsində elm və təhsilin inteqrasiyası, birgə layihələrin həyata keçirilməsi və əməkdaşlıq əlaqələrinin inkişafına dair müzakirələr aparılıb.

Daha sonra iki qurum arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi hüquq elmləri doktoru A.Mustafazadə və professor G.Gəraybəyli imzalayıblar.

Memorandumda hüquq və insan haqları sahəsində birgə elmi əməkdaşlıq, tibb hüququ elminin inkişafı, elmi konfransların, seminarların təşkili, elmi məqalələrin və dərsliklərin nəşri, həmçinin tibb hüququ sahəsində milli qanunvericilik üçün layihənin və fiziki imkanları məhdud olan şəxslərin təlimi və inklüziv təhsili metodologiyasının inkişafı sahəsində təkliflərin işlənib hazırlanması əksini tapıb.

# Xroniki obstruktiv ağciyər xəstəliyi ilə mübarizə günü qeyd edilib

**Noyabrın 22-də Tədris Terapevtik Klinikasında "Xroniki obstruktiv ağciyər xəstəliyi ilə mübarizə gününə həsr olunmuş tədbir keçirilib.**



Tədbirdə klinikanın baş həkimi, assistent Fəridə Hacıyeva açılış nitqi ilə çıxış edib, bu cür tədbirlərin maarifləndirmə xarakterli əhəmiyyətindən danışıb. Baş həkim bildirib ki, ayrı-ayrı xəstəliklərə dair tarixlərin qeyd olunması dünya ictimaiyyətinin bu məsələyə diqqətini artırmaq məqsədi daşıyır. Bu baxımdan, həmin günlərin tibb təhsil müəssisələrində qeyd olunması həm rezidentlər, həm də tələbələr üçün faydalıdır.



Daha sonra klinikanın pulmonologiya və allerqologiya şöbəsinin pulmanoloqu, assistent Əlizamin Sadıqov xəstəliyin əlamətləri, yayılması səbəbləri, qorunması yolları, müalicəsi barədə ətraflı məlumat verib. Qeyd edib ki, xroniki obstruktiv ağciyər xəstəliyi dünyada yayılma səviyyəsinə görə ağciyər xəstəlikləri arasında ən birincilərdəndir: "Xəstəliyin ən əsas səbəbi siqaret çəkməklə bağlıdır. Son illər inkişaf etməkdə olan ölkələrdə əhali arasında siqaret çəkmənin indeksi çoxalır. Həkimlər daim insanlar arasında tütün məmulatlarının ziyanına aid maarifləndirmə işi aparırlar. Təəssüf ki, hələ də siqaret çəkənlərin sayı çoxdur. Xroniki obstruktiv ağciyər xəstəliyi çox geniş yayılmış bir patalogiyadır. Bu xəstəlik hətta bəzi hallarda ölümlə nəticələnə bilər".

Qeyd olunub ki, xroniki obstruktiv ağciyər xəstəliyi zamanı nəfəsalma çətinləşir, tənginəfəslik müşahidə olunur. Bu xəstəlik tam müalicə olunmur, lakin düzgün müalicə ilə onun inkişafını zəiflətmək mümkündür. İlkin olaraq siqaretdən imtina etmək lazımdır. Son 10 ildə dünyada bu xəstəlikdən ölüm sayı 30 faiz artıb. 2015-ci ildə xroniki obstruktiv ağciyər xəstəliyindən ölənlərin sayı 3 milyondan artıq olub.

Tədbirdə Ümumdünya Səhiyyə Təşkilatının xəstəliklə mübarizə istiqamətində apardığı maarifləndirmə işləri barədə də məlumat verilib.

**ATU-nun mətbuat xidməti**

# Stomatologiyanın tədrisində yenilik tətbiq olundu

**ATU-nun ortopedik stomatologiya kafedrasında tədris proqramında maraqlı yenilik tətbiq olunur. Bu haqda məlumat verən kafedra müdiri, professor Nazim Pənahov bildirir ki, yeni tədris proqramı universitetin rektorunun göstərişinə əsasən hazırlanıb.**

"Kafedramız tərəfindən 8 semestr ərzində ortopedik stomatologiya fənni tədris olunur. Burada bütün dünyada qəbul olunmuş bir sistem - dişin morfologiyasının hazırlanması ilə məşğul oluruq. Bu zaman hər hansı bir materialdan, məsələn, sabundan, şamdan, gipsdən 32 dişin hər birinin forması yonulur. Biz də artıq bu metodu tətbiq edirik".

N.Pənahovun sözlərinə görə, 2-3 qrup birlikdə 90 dəqiqə ərzində dişin formasını yonurlar: "Hər dərsdə tələbələrə konkret bir dişin formasının yonulması tapşırığı verilir. Tələbələr əvvəlcə diş formasını sabundan əllə düzəldirlər. Bu üsulu yüksək səviyyədə mənimsəyən tələbə artıq yuxarı kurslarda sərbəst şəkildə ağızda estetik formaları işləyəcək".



Kafedra müdiri bildirir ki, tələbələr yeni tədris metodunu böyük maraqla qarşılayıblar. Onlar həvəslə verilən tapşırığı qaydalara uyğun şəkildə yerinə yetirməyə çalışırlar.

Artıq ATU-nun tədris şöbəsinin müdiri Samir Cavadov da bu dərslərdə iştirak edib, proqrama salınan dəyişikliyin praktikada tətbiqi ilə yaxından tanış olub. Gələcəkdə kafedra daxilində tələbələrin ən yaxşı əl işlərindən ibarət kiçik muzeyin yaradılmasını da təklif edib.

# Kafedra müdiri Qazaxıstanda beynəlxalq konfransda iştirak edib

**ATU-nun ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov Qazaxıstan Respublikası Karaqanda Dövlət Tibb Universitetinin dəvətilə bu universitetdə keçirilən "Əmək təbabətinin aktual məsələləri, Xrizotil və sağlamlıq" mövzusunda beynəlxalq elmi konfransda iştirak etmişdir.**



Konfransın gündəliyinə 10-dan çox ölkədən (Azərbaycan, Hindistan, Özbəkistan, Tacikstan, Qırğızıstan, Ukrayna, Rusiya Federasiyası və s.) iştirak edən alimlər gigiyena elminin müxtəlif sahələri üzrə apardıqları tədqiqatların nəticələrini təqdim etmişdilər.

Azərbaycan Respublikasından olan nümayəndə - professor M.Kazımov kafedrada aparılan geniş elmi tədqiqatların bir fraqmenti – "Tibb universiteti tələbələrinin orqanizminin adaptasiya ehtiyatları və tədris prosesinin xüsusiyyətlərinin qarşılıqlı əlaqəsinin qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış etmişdir.

Professor M.Kazımovun məruzəsində səslənən məsələlər, xüsusən ali təhsil almağa başlayan tələbələrin ilk təhsil kurslarında (əsasən I və II kurslarda) universitet mühitinə adaptasiyası ilə əlaqədar orqanizmin bir sıra funksional sistemlərində müşahidə edilən dəyişikliklərə aid məlumatlar konfrans iştirakçılarının ciddi marağına səbəb olmuşdur. Bu maraq həm də onunla əlaqədardır ki, ölkəmizdə həyata keçirilən tədrisin Avropa standartlarına inteqrasiyası və bununla əlaqədar aparılan fundamental reformalar konfrans iştirakçısı olan ölkələrin əksəriyyətində, o cümlədən Qazaxıstan Respublikasında da tətbiq edilməkdədir. Ona görə də bu tematikaya həsr olunmuş məruzələr konfransın gündəliyində üstünlük təşkil edirdi. Qazaxıstan alimlərinin məruzələrində yalnız ali təhsildə aparılan reformalar deyil, həm də orta məktəblərdə və orta ixtisas təhsili müəssisələrində təhsilin xüsusiyyətləri, tədris proqramlarında aparılmış dəyişikliklərə daha çox diqqət ayrılmışdı.

Konfransın sonunda Karaqanda Dövlət Tibb Universitetinin rektoru, professor R.Dosmaqambetova konfransın seksiya iclasına moderatorluq edən professor M.Kazımovu qəbul etmişdir. Professor M.Kazımov Azərbaycan Tibb Universitetinin konfransa dəvət edilməsinə görə rektora təşəkkür etmiş və beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunması və keçirilməsini qeyd etmişdir. Professor R.Dosmaqambetova onun salamlarını ATU-nun rektoru, professor G.Gəraybəyliyə çatdırmağı xahiş etmiş və hər iki universitet arasında qarşılıqlı əməkdaşlıq etməyə hazır olduqlarını bildirmişdir.

# Türkiyəli professorun məruzəsi ATU-da maraqla qarşılanıb

**Noyabrın 22-də Tədris Terapevtik Klinikasında seminar keçirilib.**





Seminarda Türkiyənin Başkent Universitetinin professoru Siren Sezer həkimlər və universitetin tələbələri qarşısında "Xroniki böyrək xəstəliklərinin diaqnostik meyarları" mövzusunda geniş məruzə ilə çıxış edib.

Professor iş təcrübəsi zamanı müxtəlif yaş qruplarında müayinə olunmuş bir neçə ağır xəstənin ümumi vəziyyətindən söhbət açıb. Sonra zalda əyləşən həmkarlarına müraciət edərək ayrı-ayrı xəstələrin farmakoloji anamnezləri ilə bağlı onların hansı müalicə üsulunu seçəcəyi, xəstəyə hansı dərman preparatını təyin edəcəyi ilə maqraqlanıb. Məruzəçinin seçdiyi bu taktika zalda bir canlanmaya səbəb olub.

S.Sezer kəskin glomerulonefrit, diabetik mellitus və arterial hipertoniya ilə əsasən ağrılı böyrək zamanı xəstələrin qanlarında kreatin və digər zərərli maddələrin miqdarı normadan artıq aşkarlanarsa, hansı profilaktik tədbirlərin görüləcəyi və hansı müalicə üsullarından istifadə ediləcəyi məsələsinə də toxunub. Böyrək çatışmazlığı olan hamilə qadınların qarşılaşdığı problemlər və bu problemləri aradan qaldırmağın yolları ilə bağlı məqamlar da geniş diskusiyaya səbəb olub.

**ATU-nun mətbuat xidməti**

# Paytaxtda bütün bölgələri əhatə edən elmi-praktik konfrans keçirilib

**Noyabrın 21-də "Pulman" Hotelində İctimai Səhiyyə və İslahatlar Mərkəzinin təşkilatçılığı, Azərbaycan Tibb Assosiasiyasının Revmatologiya Dərnəyinin iştirakı ilə "Osteoartroz, bel ağrıları, revmatoid artrit və podaqra xəstələrində ağrının korreksiyası" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Konfransı giriş sözü ilə tibb elmləri doktoru, professor Eldar Abbasov açaraq iştirakçıları salamlayıb. Onlara bu konfransda iştirak etdikləri üçün öz adından və sadərət adından təşəkkürünü bildirib.

Sonra çıxış üçün söz Azərbaycan Tibb Assosiasiyasının Revmatologiya Dərnəyinin sədri, tibb üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi Sahib Musayevə verilib. Onun "Revmatoid artrit və podaqranın patogenezi və müalicə prinsipləri" mövzusunda etdiyi çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanıb. Respublikanın müxtəlif bölgələrində fəaliyyət göstərən revmatoloqlar S.Musayevə çoxsaylı suallar veriblər. Professor öz növbəsində ona ünvanlanan suallara hərtərəfli və əhatəli şəkildə cavab verib. Məruzəçilərdən professor Eldar Abbasovun "Osteoartrozun patogenezi, konservativ müalicəsi və ağrının korreksiyası", "Mediklub" Klinikasının alqoloqu Ramin Tahirzadənin "Ağrıların multidissiplinar müalicəsi", Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun elmi işçisi Mərziyyə Məmmədovanın "Bel ağrıları, təsnifat və differensial diaqnostika" mövzusunda etdikləri çıxışlar da iştirakçıların marağına səbəb olub.



Qeyd edək ki, məruzəçilər son illər səhiyyə elminin revmatoloji və travmotoloji sahədə qazandığı uğur və son nailiyyətlərlə də bağlı konfrans iştirakçılarına ətraflı məlumat veriblər.

Professor Sahib Musayevin "Təbib" qəzetinə verdiyi açıqlamasına görə, konfransda 220 nəfərin iştirak edib: "Bu gün İctimai Səhiyyə və İslahatlar Mərkəzinin təşkilatçılığı, Azərbaycan Tibb Assosiasiyasının Revmatoloqlar Dərnəyinin, Azərbaycan Tibb Universitetinin aparıcı professor-müəllim heyətinin iştirakı ilə olduqca möhtəşəm bir konfrans - revmatoloji və travmotoloji elmi-praktik konfransı keçirildi. Konfransın əsas özəlliyi ondan ibarət idi ki, iştirakçıların böyük əksəriyyəti bölgələri təmsil edirdilər. Paytaxtda çalışan həkimlərə nisbətən əyalətlərdə çalışan həkimlər tibbi biliklərini artırmaq üçün bir qədər məhdudiyyətlə üzləşdiklərindən, bu konfransın keçirilməsinin əhəmiyyəti olduqca böyük oldu. Həkimlərimiz daxili xəstəliklərin korreksiyasında ağrı sindromunun diaqnostik meyarları və aradan qaldırılması yolları barəsində geniş məruzələrlə çıxış etdi və bu ətrafda geniş disskusiyalar aparıldı." - deyən S.Musayev sözünün sonunda keçirilən bu konfransın revmatoloji, travmotoloji, nevroloji sahədə problemlərin həlli istiqamətində həkimlərin biliklərinin artırılmasında mühüm rol oynayacağını vurğuladı.

**Qabil ABDULLAYEV**

# Tədris Cərrahiyyə Klinikasında 10 ayın hesabatı verildi

**Noyabrın 19-da Tədris Cərrahiyyə Klinikasının 10 aylıq hesabat iclası keçirilib. İclasda çıxış edən klinikanın direktoru, professor Surxay Hadıyev bildirib ki, TCK-nın fəaliyyətinin qiymətləndirilməsi, əldə olunan nailiyyətlərin paylaşılması, çatışmazlıqların aradan qaldırılması baxımından bu cür tədbirlərin keçirilməsi çox önəmlidir: “Artıq hər bir şöbə ayrı-ayrılıqda aylıq hesabatlar təqdim edəcək. İlin sonunda isə bütün şöbələrdən daha geniş həcmli təqdimatlar hazırlanacaq. Bu zaman aparılan klinik işlərlə yanaşı, tədris yönümlü fəaliyyətlə bağlı hesabat da sənəddə əks olunacaq.”**






Klinikanın baş həkimi, professor Ramiz Poluxov çıxışında Səhiyyə Nazirliyinin 20.06.2017-ci il tarixli 45 nömrəli əmri ilə “Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə dair müvəqqəti Qaydalar”ın təsdiq edildiyini bildirib: “Məqsəd ölkəmizdə səhiyyə mütəxəssislərinin peşə, bilik və bacarıqlarının təkmilləşdirilməsi prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına nail olmaqdır. Bu Qaydalar əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsini təmin etmək məqsədi ilə praktik tibbi fəaliyyətlə məşğul olan həkimlərin davamlı tibbi təhsil prosesini tənzimləyir. Səhiyyəmizin inkişafının əsas istiqamətlərindən biri də tibbi təhsil və kadr hazırlığıdır. Bu sahədə də səhiyyəmizin dünya standartları üzrə inkişafı və qabaqcıl ölkələrin səhiyyə sisteminə inteqrasiya etməsi üçün ardıcıllıqla əhəmiyyətli tədbirlər həyata keçirilir. Həkimlərimizin müasir tibb elminin inkişafı ilə ayaqlaşmaları və onların son nailiyyətlərdən xəbərdar olmalarını təmin etmək üçün bu təhsil növünün ölkəmizdə də inkişaf etməsi bu günün tələbidir”.

Baş həkim Azərbaycanda Davamlı Tibbi Təhsilin (DTT) tətbiqi ilə bağlı təfərrüatları, bal kredit sisteminin yaradılması haqqında məlumatı da toplantı iştirkçılarının nəzərinə çatdırıb. Qeyd edib ki, DTT praktik tibb fəaliyyəti ilə məşğul olan həkimlərin bilik, bacarıq və peşəkar vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş təhsil prosesidir. Metoddan asılı olmayaraq, DTT-nin zəruri miqdarının hesablanması kreditlər vasitəsilə həyata keçirilir. DTT krediti onun məzmununa və həcminə uyğun olaraq mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir.

Sonra şöbələrin hesabatları dinlənilib. Otalorinqoloq, assistent Murad Şıxəlieyev qulaq, burun, boğaz cərrahiyyəsi şöbəsinin hesabatını təqdim edərək şöbədə 31 cərrah, 2 professor, 2 dosent, 14 assistent, 2 baş laborant, 2 mütəxəssis həkim, 9 rezident, 2 tibb elmləri doktoru, 10 tibb üzrə fəlsəfə doktorunun çalışdığını bildirib. Şöbədə bu ilin 10 ayı ərzində 4900 xəstənin müayinə edildiyini, stasionar xəstənin sayının 479 olduğunu, bu müddət ərzində qulaq, burun, boğaz cərrahiyyəsi şöbəsində 471 əməliyyatın həyata keçirildiyini qeyd edib.

Ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin hesabatını isə şöbə müdiri Məhəmməd Davudov təqdim edib. Bildirib ki, 10 ay ərzində 2406 xəstəyə konsultasiya, ambulator və stasionar xidmət göstərilib. 429 xəstə olub, 415 əməliyyat icra olunub. 24 çarpayı sayı olan şöbədə ümumi 10 xəstə konservativ müalicə alıb.

Klinikanın plastik və estetik cərrahiyyə şöbəsinin hesabatını şöbə müdiri Mirsaleh Abdullayev açıqlayıb. Qeyd edib ki, şöbə yeni fəaliyyətə başlasa da, hesabat müddəti ərzində ümumilikdə 233 əməliyyat icra olunub. 118 estetik cərrahi əməliyyat, 32 kosmetoloji prosedur həyata keçirilib. Şöbədə artıq kosmetoloq da fəaliyyət göstərir.

İclasın sonunda klinikanın direktoru və baş həkim şöbələrin fəaliyyətinə dair təklif və iradlarını bildiriblər.

# Bu xəstəliyə gənclərin 85 faizində rast gəlinir

**Yeniyetməlik dövründə bir çoxlarının üzündə sızanaqlar müşahidə olunur. “Akne” adı verilən bu xəstəlik bəzən uzun illər davam edir, müəyyən səbəblərdən yaşlı vaxtda da insanlarda narahatlıq yaradır. Tədris Cərrahiyyə Klinikasında keçirilən seminar da məhz bu mövzuya həsr olunmuşdur.**



Dermotovenerologiya kafedrasının dosenti Elşad Novruzov haqqında bəhs olunan xəstəliyin gənclər üçün daha aktual olduğunu bildirib: “Akne xəstəliyi irsi xarakter daşıyır. Dərinin normadan artıq yağlanması və hormonlarla bağlı olan bu xəstəlik əsasən gənclərdə təsadüf olunur. 12-25 yaş arası gənclərin demək olar ki, 85 faizində sızanaqlara rast gəlmək mümkündür”.

E.Novruzov qeyd edib ki, akne xəstəliyinə universitet tələbələri arasında da rast gəlindiyindən, bu seminarın təşkilinə ehtiyac vardı. Maarifləndirmə xarakterli seminarda E.Novruzov akne xəstəliyinin mahiyyəti, profilaktikası, müalicə metodları haqqında danışıb. Akne ilə üzləşən gənclərə vaxtında həkim-dermatoloqa müraciət etmələri tövsiyə olunub. Sonda qeyd edilib ki, Tədris Cərrahiyyə Klinikasında ATU-nun tələbələri üçün akne ilə bağlı pulsuz müayinə aparılır. Xəstəliklə üzləşənlər klinkaya müraciət edə bilərlər.

# ATU-nun təmsilçiləri şagirdləri maarifləndiriblər

**Azərbaycan Tibb Universitetinin həkim-mütəxəssisləri müntəzəm olaraq maarifləndirmə xarakterli müxtəlif tədbirlərdə iştirak edirlər.**






Onlar növbəti dəfə noyabrın 20- də Mikayıl Müşfiq adına 18 nömrəli orta məktəbdə yuxarı sinif şagirdləri üçün “Təhsil müəssisələrində uşaqların cinsi tərbiyəsi” adlı layihə çəçivəsində keçirilən maarifləndirici tədbirə qatılıblar.

Tədbirdə ATU-nun “Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı” kafedrasının dosenti Zöhrə İsmayılova, həmin kafedranın doktorantı Qasım Əmrahlı, kafedranın baş laborantı Nərminə Məmmədzadə, ARTİ-nun “Psixologiya və yaş fiziologiyası” şöbəsinin böyük elmi işçisi, dissertant Bahar Bəylərova-Ələkbərova iştirak ediblər. Onlar Azərbaycan və rus bölməsinin şagirdləri qarşısında “Reproduktiv sağlamlıq” mövzusunda çıxış ediblər.

Qeyd edək ki, tədbir Təhsil Nazirliyinin “Təhsildə inkişaf və innovasiyalar” üzrə 2-ci qrant müsabiqəsində “Təhsil və maarifçilik xarakterli tədbirlərin keçirilməsi” layihəsi çərçivəsində təşkil olunub.

# “Sapiens 18 - beyin idarəsi və insan davranışları” adlı seminar

**Noyabrın 26-da ATU-nun Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Sapiens 18 - beyin idarəsi və insan davranışları” adlı seminar keçirilib.**





Tədbir “ORKHANWAY Coaching” şirkətinin təsisçisi, ABŞ-ın Linkoln Universitetinin məzunu Orxan Şahbazın təqdimatında aparılıb.

250 nəfərin iştirak etdiyi seminarda insanın cəmiyyətdə özünü düzgün idarə etməsi, insan beyninin davranışlara təsirindən danışılıb. İnteraktiv və diskussiya şəraitində keçən seminarda tələbələr arasında psixoloji test keçirilib və bu da iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatı bundan öncə də bu tipli bir sıra müxtəlif seminarlar və layihələr həyata keçirib.

# Kardioloji seminar keçirilib

**Ürək xəstəlikləri təkcə Azərbaycanda deyil, bütün dünyada insanları narahat edən xəstəliklər sırasındadır. Bu səbəbdən Azərbaycan Tibb Universiteti mütəmadi olaraq bu mövzuda seminar və təlimlər təşkil edir.**





Noyabrın 19-da növbəti belə bir tədbir ATU-nun Tədris Cərrahiyyə Klinikasında baş tutub.

Tədbiri giriş nitqiylə açan klinikanın ürək kateterizasiyası və angioqrafiya şöbəsinin müdiri, ürək-damar cərrahı, invaziv kardioloq Qalib İmanov seminarın biliklərin artırılması, mübadiləsi və təşkil olunan seminarın praktikanın gücləndirilməsi baxımından böyük önəm daşıdığını vurğulayıb. Q.İmanov həmçinin semnarın mövzusu ilə bağlı fikirlərini də bölüşüb.

Sonra rezident Arif Cavadov “Koronar bifurkasion lezyonlar, klassifikasiyası və müdaxilələr” mövzusunda mühazirə ilə çıxış edib.

Geniş diskussiya şəraitində keçən seminarda iştirakçıların sualları ətraflı cavablandırılıb.

**ATU-nun mətbuat xidməti**

# Sizə öz oxucu təşəkkürümü bildirirəm

**Haqqında özünüzdən eşitdiyim kitabınızı oxumağa çox səbirsizliklə tələsirdim. Xüsusən də tibb işçiləri haqqında xatirə, memuar oxumaq mənə mənəvi qida verir. Hələ tələbəlik illərində təsadüfən əldə etdiyim, Hippokratın həyatından bəhs edən, kitabı oxumaqdan aldığım təəssüratı bu gün də yaxşı xatırlayıram.**

Onu da deyim ki, o vaxtlar rus dilini yaxşı bilmədiyimə baxmayaraq boş vaxtlarımın hər dəqiqəsini bu kitabı oxuyub başa çatdırmağa, Hippokrat dövrü, onun şəxsi həyatı ilə yaxından tanış olmağa sərf edirdim.

Həyatını həkimliyə həsr etməyə başlayan bir gənc üçün bundan maraqlı nə ola bilərdi?




Tanıdığımız və tanımadığımız Azərbaycan ziyalısı, alimi, həkiminin sadəliyini, nəcibliyini, alimliyini, ən başlıcası vətənpərvərliyini və insanpərvərliyini çox incə bir zövqlə tərənnüm etmisiniz. Həmin hissləri oxucularınıza yaşatdığınız üçün çox sağ olun.

Təkcə bu şəxsiyyətlərə aid başlıqlar üçün seçdiyiniz adlar (vətən təbabətinin iki məşəli, korifey, irəliyə baxan, xeyirxahlıq etməyə tələsin, canlı əfsanə, Allahdan həkim-pediatr, self-made-man, учитель-наставник, ağca Asya İsaakovna, fəxr edilə bilinəsi ad) onların müqəddəslərə yaxın olduğundan xəbər verir.

Bəzən, çox ehtiyatla tələbələrimə həkimliyin bütün sənətlərdən yüksəkdə durduğunu, həkim məsuliyyətinin çox böyük olduğunu izah etməyə çalışırdım. Bu böyük insanlar haqqında yazdıqlarınız açıqlamaları oxuduqdan sonra məndə bir rahatlıq hissi yarandı, fikirlərimdə yanılmadığımı hiss etdim.

Onlardan birinin söylədiyi "Qızlarım, gələcək maarifçilikdədir! Çalışın oxuyun!", yaxud "Həkimin qiyməti yoxdur. Onun qiyməti ən yüksək olmalıdır!" fikirləri bu gün üçün də aktualdır.

*Əzizim yaman yara,*
*Əl vurma yaman yara.*
*Qorxuram naşı həkim*
*Yaramı yaman yara.*

Söylənən bayatı ümidlə yaşayan bir xəstənin qəlbinin ənginliklərindən süzülüb gələn təranə, mənşəyi bilinməyən kosmik fəzadakı ağılasığmaz dərəcədə böyük enerji mənbəyindən gələn işartıya bənzəyir. Bu bir həyat, yaşamaq, sevgi və yaratmaq kodeksi kimi səslənir, müqəddəs həkimlik kodeksidir!

Öz sənətkarlığı, mənəvi aləminin zənginliyinə görə dahilər səviyyəsinə yüksəlmiş azərbaycanlı ziyalılarımızın həyatını gələcək nəsillərə çatdırmaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Siz bu işin öhdəsindən çox gözəl gəlmisiniz, özü də səmimiliyinizlə.

Təsvir etdiyiniz ziyalı və alimlərimizin bir çoxunun mən ya tələbəsi, ya da tanışı olmuşam. Həm də buna görə qələminizin məhsulunu məmnunluqla qəbul etdim. Belə şəxsiyyətlərlə sağlıqlarında qısa bir tanışlıq, təsadüfi bir görüş belə insanların həyatında silinməz izlər qoyur, həyatı gözələşdirir. Adlarını, təmiz mənəviyyatlarını, bəzi hallarda isə həyatını xalqı yolunda qurban vermiş insanların daxili aləmini gələcək nəsillərə çatdırmaqla onların da aləmini gözəlləşdirmiş, mənalandırmısınız. Bu, indiki nəsil bizim adımızdan onlara həyatı, insanları, vətənini sevməyə çağırış mesajıdır. Düşünürəm ki, yalnız belə amallarla yaşadıqda insanın həyatı mənalı olur. Qələmə aldığınız şəxsiyyətlərin həyatını yazdığınız sətirlər qədər uzatmısınız, onların adlarını gələcək tariximizə ünvanlamısınız.

Taleyin uzun müddət ayrı saldığına görə həyat yoldaşı qarşısında özünü borclu hesab edən Azərbaycan qadınının bu müqəddəs borcu qaytarmaq üçün o dünyada onunla yanaşı uyumağı seçməsi, sürgün olunmuş həyat yoldaşlarının arxasınca şaxtalı-boranlı Sibirə yollanan rus qadınlarının mərdliyinə kölgə salır.

Bu parlaq simalar haqqında yazdıqlarınıza öz təəssüratlarımı əlavə etməyi lazım bilmirəm. Onların keçdiyi həyat yollarına işıq salmaq üçün çox cildli romanlar yazmaq lazımdır.

Nəcib işinizə görə sizə şəxsi minnətdarlığımı bildirməyi vətəndaş borcu hesab etdim.

Sizə öz oxucu təşəkkürümü bildirirəm.

**Hörmətlə:** **Davud Pənahov,**
*professor*

# Kardioloq-cərrah: "Bu uşaqlarda ürək qüsurlarına daha çox rast gəlinir"

**Daun sindromu - yenidoğulmuş hər 1000 körpədən birində rast gəlinən genetik bir xəstəlikdir. Xüsusilə, gec uşaq sahibi olan ailələrdə bu sindrom aşkarlanır. Hələ döl ana bətnində olduğu zaman fetal exokardioqrafiya vasitəsilə Daun sindromu diaqnoz qoymaq mümkündür.**



Bu xəstəliklə doğulan uşaqlar zehin geriliyi, immun sistem zəifliyi , ürək qüsurları kimi bir çox xəstəliklərdən əziyyət çəkirlər. Bunların sırasında ürəklə bağlı problemlər daha çox müşahidə olunur.

ATU- nun Tədris Cərrahiyyə Klinikasının uşaq ürək cərrahı Ramal Həsənov deyir ki, Daun sindromlu hər iki uşaqdan birində ürək qüsuru ilə rastlaşırıq. Buna görə də ürək qüsurlarının diaqnostikası məqsədilə Daun sindromu ilə doğulan hər uşağa pediatrik kardioloq tərəfindən exokardioqrafiya olunması məsləhətdir.

"Məlumdur ki, hər bir normal insanda 46 xromosom olur. Bu uşaqların 21 nömrəli xromosomunda 2 əvəzinə 3 xromosom olur. Daun sindromuyla doğulmuş körpələrin beyin inkişafı normal uşaqlara nisbətən daha yavaş gedir. İmmun sistemləri zəif olduğundan, bu uşaqlar tez-tez xəstələnə bilir. Xroniki qəbzlik, göbək yırtığı, qol və ayaqlarında əzələ zəifliyi, ciddi ürək xəstəlikləri ilə yanaşı müşahidə edilə bilir".

Bu körpələrdə çox rast gəlinən problemlərdən biri də "Atrio-ventrikulyar kanal defekti" adlandırılan qüsurdur. Ramal Həsənovun sözlərinə görə, normadan fərqli olaraq, belə xəstələrin ürəyində qulaqcıqlar və mədəciklər arasında iki qapaq əvəzinə tək qapaq olur. Bu qüsur əməliyyat yolu ilə aradan qaldırılır: "Əməliyyat zamanı bir qapaqdan, iki ayrı qapaq yaratmaq lazımdır. Əlavə olaraq, qulaqcıqlar və mədəciklər arasındakı dəlikləri də bağlamaq lazımdır. Demək olar, bu uşaqların ürəyinin içini ortaq tək bir boşluqdan 4 ayrı kameraya tamamlayırıq".

Lakin nəzərə alınmalıdır ki, bu körpələrin həm əməliyyatı, həm əməliyyat öncəsi hazırlıqları normal uşaqlara nisbətən çətin və mürəkkəbdir. Eyni zamanda, onların reanimasiya periodu, süni tənəffüs aparatından ayrılması və sonrakı qidalanması, sağalması dövründə həm ailə, həm də həkim tərəfindən ciddi nəzarət, diqqət və səbr tələb edir.

Cərrah qeyd edir ki, vaxtında əməliyyat olunmayan, bu şansı itirən uşaqlarda sonradan çox ciddi ürək-ağciyər çatışmazlığı müşahidə edilir. Belə ciddi fəsadların qarşısını almaq üçün Daun sindromlu hər bir uşaq həyatının ilk günlərində pediatrik kardioloqun müayinəsindən keçməlidir.

"Bir çox ailələr bu körpələrini çox sevir, onların pozitiv enerjisini, şən olmasını, saf davranışlarını təqdir edir, xəstəliklərdən qorumağa çalışırlar. Bu körpələrin həyatda qalmasında həkimlərlə yanaşı, ailənin də böyük rolu var".

R.Həsənov qeyd edir ki, Daun sindromlu körpələrin baxımı normal bir körpədən 10 dəfə daha çətindir. Ona görə də bu uşaqları böyüdüb boya-başa çatdırmaq ailədən ciddi fədakarlıq tələb edir.

# ATU-da "Qanun" nəşriyyatının kitab sərgisi təşkil olunub

**ATU-nun 4 saylı tədris binasının foyesində "Qanun" nəşriyyatının müxtəlif illərdə çap etdiyi kitabların sərgisi təşkil olunub.**



Sərginin keçirilməsində əsas məqsəd gənclərin kitaba olan sevgisinin yaxından öyrənilməsi və onların kitaba marağının daha da artırılmasıdır.

Sərgi haqqında məlumat verən "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlunun sözlərinə görə, iki gün müddətində düzənlənən sərgiyə öz dəyərindən aşağı 500 adda 3 minə yaxın kitab çıxarılıb. O, bildirib ki, "Qanun" nəşriyyatı ölkəmizdə otuz ilə yaxındır ki, fəaliyyət göstərir. Və bu illər ərzində bütün sahələr üzrə ən çox kitab çap edən bir nəşriyyatdır. Hal-hazırda sərgiyə çıxarılan kitablar arasında müxtəlif çap nümunələri ilə yanaşı, tibbin bir sıra sahələrindən bəhs edən xalq təbabəti, uşaq xəstəliklərinə aid, o cümlədən psixologiya elminə dair maraqlı kitablar da yer almışdır.

Burada tanınmış yazıçı və şairlərin, həmçinin görkəmli elm adamlarının müəllifi olduğu elmi, bədii və publisistik əsərlər nümayiş olunaraq geniş oxucu kütləsinə çatdırılıb.

Sərgidə universitetimizin əməkdaşları, müəllim və tələbələri fəal iştirak ediblər.

**"TƏBİB"**

## Yeni nəşrlər

# "Plastik və rekonstruktiv cərrahiyyə" dərsliyi çapdan çıxıb

**Azərbaycan Tibb Universitetinin tələbələri və rezidentləri üçün dərslik çap olunub. "Plastik və rekonstruktiv cərrahiyyə" dərsliyi bu sahədə ilk tədris vəsaitidir.**




Dərsliyin müəllifi, Tədris Cərrahiyyə Klinikasının plastik və rekonstruktiv cərrahı, professor Vaqif Qələndərin sözlərinə görə, kitab 400 səhifədən ibarətdir:

"Bu kitab Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Tibb Universitetinin qrifi olan bir dərsliyidir. Dərslik üzərində iş 3 il yarım davam edib. Bu kitabda qeyd olunan bütün klinik vasitələr, əməliyyat üsulları ATU-da özümüz tərəfindən icra olunub".

Müəllif hesab edir ki, kitab həm rezidentər, həm tələbələr üçün olduqca faydalı olacaq. Çünki "Plastik və rekonstruktiv cərrahiyyə" dərsliyi bu sahədə ilk dərslikdir. Kitabın elektron variantı artıq Azərbaycan Tibb Universitetinin və Səhiyyə Nazirliyinin kitabxanasına təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# Tədris Cərrahiyyə Klinikasında Kosmetoloji Mərkəz yaradılıb

## Ölkəmizdə ilk dəfə bu mərkəzdə “İnmode” texnikası tətbiq olunur

**Tədris Cərrahiyyə Klinikasının plastik və estetik cərrahiyyə şöbəsi nəzdində Kosmetoloji Mərkəz yaradılıb.**



Klinikanın kosmetoloq həkimi Nərgiz Səfərova şöbədə göstərilən xidmətlər haqqında məlumat verib. Onun sözlərinə görə, şöbədə kosmetoloji mərkəzin xidmətlərinə ciddi ehtiyac olub.

N.Səfərova bildirib ki, mərkəzdə cərrahiyyə üsulu olmadan saç və qaş əkilməsi, xoruldamanın «Fotona» lazer aparatı ilə müalicəsi həyata keçirilir. Bundan əlavə, burada vaqinoplastika, lazerlə intim cavanlaşma, lipofilling, liposaksiya, inmode texnika, piy toxumalarının lazerlə götürülməsi kimi prosedurlar da icra olunur.

Mərkəzdə əhalini daha çox narahat edən məsələlər, o cümlədən çapıqların, qoltuqaltı tərləmənin müalicəsi, genişlənmiş kapilyarların lazerlə ləğvi, dırnaq göbələyinin lazerlə müalicəsi, bədən və üz dolğuları və əməliyyat olmadan saplarla üzün gərilməsi kimi populyar prosedurlar da həyata keçirilir.

N.Səfərova onu da qeyd edib ki, hazırda Azərbaycanda yalnız Tədris Cərrahiyyə Klinikasında “İnmode” texnikası təqdim olunur. İstifadəsi çox rahat olan bu avadanlıq sayəsində prosedurlardan sonra heç bir fəsad yaranmır. İynəli frakzional lazerdən ibarət olan bu texnika ilə qoltuqaltı tərləmələri müalicə etmək mümkündür.

Qeyd edək ki, Kosmetoloji Mərkəzdə prosedurlar Türkiyədə və Sloveniyada müvafiq kurslardan keçən yüksək ixtisaslı mütəxəssislərin nəzarəti altında aparılır.

# Mütəxəssislərimiz Türkiyə Milli Pediatriya Konqresinə qatılıblar

**Noyabrın 14-dən 18-dək Antalyada 62-ci Türkiyə Milli Pediatriya Konqresi keçirilib. Bu beynəlxalq tədbirdə Azərbaycanın 17 nəfərlik nümayəndə heyəti də iştirak edib.**



Konqres iştirakçısı, Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının pediatrı Nigar Sədiyevanın sözlərinə görə, tədbirdə uşaq xəstəlikləri ilə bağlı mühüm məsələlər müzakirə olunub: “Konqresdən öncə iştirakçılar üçün klinik kurs təşkil olundu. Bura uşaq təcili yardım, qidalanma, endokrin xəstələr, xəstəliklərin laborator diaqnozları üzrə kurslar daxil idi. Bu klinik kurslarda nümayəndə heyətiz də aktiv iştirak edib”.

Pediatriya Dərnəyinin koordinatoru Nigar Sədiyeva konqres zamanı uşaq sağlamlığı ilə bağlı Türkiyədə, eləcə də region və dünya dövlətlərində əldə olunan son nailiyyətlər və bu sahədəki yeniliklərlə tanış olduqlarını bildirir: “Konqresdə xəstəliklər qrupu üzrə müasir yanaşma, son klinik protokollar ortaya qoyuldu. Ənənəvi master-klasslarla yanaşı, sözlü və poster sessiyalar keçirildi. Müzakirə olunan mövzular arasında körpələrin immun sistemində risk faktorları, uşaq qidalanmasında önəmli məqamlar, öskürəklərin bitki tərkibli dərmanlarla müalicəsi, uşaqlarda hərarətin qarşısının alınması, epilepsiya və digərlərini vurğulamaq olar”.

Onun sözlərinə görə, 4 gün davam edən konqres çox faydalı olub. Qeyd edək ki, tədbirdə ATU-nun digər təmsilçisi, professor Nəsib Quliyevlə yanaşı, ATA Pediatriya dərnəyinin üzvləri, MKX-nin və ETPİ-nin əməkdaşları, uzman pediatrlar da iştirak ediblər.

# “17-ci xromosom üzrə trisomik uşaqların doğulması faktı məlum deyil”

**Tibbi biologiya və genetika kafedrasının baş müəllimi, b.ü.f.d. Aytəkin Həsənova bioloji təbabət klinikasının nəzdində fəaliyyət göstərən AFGEN genetik diaqnoz mərkəzində tədqiqat apardığı 4 il müddətində tez-tez baş verən uşaqsalmaların 30-40%-inin səbəbi olan xromosom trisomiyalarını araşdırarkən ən çox müşahidə olunan trisomiyaların 13 (Patau), 18 (Edvards), 21 (Daun) nömrəli xromosomlarda yarandığını öyrənmişdir. Bu dövrdə o cəmi 1 xəstədə dünya üzrə çox az təsadüf olunan (dünyada cəmi 18 xəstə) 17-ci xromosomun uzun çiyninin trisomiyasına rast gəlmişdir.**



Onun sözlərinə görə, haploid xromosom dəstinə (n=23) görə xromosomların sayının diploid sayla (2n=46) müqayisədə dəfələrlə artması insanda ən çox triploidlərin (3n=69) əmələ gəlməsində özünü göstərir. Belə mutasiyalar embrionun (dölün) inkişafında kənaraçıxmalara səbəb olur. Bir qayda olaraq belə döllərin inkişafı axıra qədər getmir, çox vaxt spontan uşaqsalmalar və hamiləliyin vaxtından əvvəl kəsilməsi ilə başa çatır.

Aytəkin xanım hesab edir ki, insan üçün poliploidiya letal xarakterli olduğundan onun öyrənilməsi spontan uşaqsalmalar və süni abortların materiallarına əsaslanır. Mamalıq praktikasında müşahidə edilən uşaqsalmaların 4%-ə qədəri ziqotların (embrionların) triploid (3n) xromosom dəstinə malik olması ilə əlaqədardır.

Müsahibimiz ədəbiyyat məlumatına görə triploid uşaqların nadir hallarda doğulmasının mümkünlüyünü deyir: “Bəzən mozaik diploid-triploid xromosom dəstli uşaqlar doğulur. Trisomiyalar zamanı xromosom patologiyaları bir qayda olaraq müalicə olunmur. Müalicəsi mümkün olmayan belə xəstəliklər bir sıra ağır kliniki əlamətləri ilə seçilir. Belə xəstələr təcrid olunduğu üçün əksər hallarda onların mutasiya dəyişkənliyini sonrakı nəslə verməsi mümkün deyil. Deməli, bu tip xromosom xəstəliklərinin mənbəyini ya tam sağlam valideynlərin qametlərində baş verən mutasiyalarda, ya da mozaikliyə səbəb olan ziqotun ilkin bölünmələri zamanı mitozun gedişinin pozulmasında axtarmaq lazımdır”.

Mütəxəssis bildirir ki, 17-ci xromosom üzrə trisomik uşaqların doğulması faktı məlum deyil. 17-ci autosoma görə trisomiyaya prenatal dövrdə belə, nadir hallarda rast gəlinir. Trisomiya 17-yə malik hüceyrə ya qametogenez prosesində eliminasiyaya məruz qalır, ya da ziqotun bölünməsinin başlanğıc mərhələlərində ölür. Tam triploid xromosom dəstinə malik yeni doğulmuş körpənin ömrü 15 dəqiqədən 7 sutkaya qədər olur. Həyat əhəmiyyətli mühüm orqanlardakı eybəcərliklər belə uşaqların yaşamasını qeyri-mümkün edir. Bu cür mozaiklərin bədənlərinin yarısı diploid, ikinci yarısı isə triploid hüceyrələrdən təşkil olunmuşdur. Bu patologiya zamanı dölün çəkisinin normadan aşağı olması, kəllənin təpə və ənsə sümüklərinin pis inkişaf etməsi, eləcə də cinsiyyət vəzilərinin inkişafında kənaraçıxmalar müşahidə edilmişdir. Bu maraqlı az rast gəlinən patologiya mütəxəssislərin də diqqətini cəlb edib.

A.Həsənovanın sözlərinə görə, xəstənin klinik araşdırmaları davam etdirilir, xəstəliyin tam müalicəsi mümkün olmasa da, müalicə ilə xəstəliyin əlamətlərini yüngülləşdirmək və tezliyini azaltmaq mümkündür. Genetik quruluşdakı dəyişikliklərin öyrənilməsi, meydana gələn xəstəliklərin sonrakı nəsillərə ötürülmə riski haqqında düzgün və erkən diaqnostika, profilaktika, müalicə üsullarının inkişaf etdirilməsi və müəyyən strategiyaların təyini üçün önəmlidir.

# ATU-nun doktorantı Təhsil Nazirliyinin nüfuzlu müsabiqəsinin qalibi olub

**Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və «Ekspo 2025 Bakı» Əməliyyat Katibliyi tərəfindən 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun ümumdünya sərgisinə ev sahibliyinə Bakı şəhərinin namizədliyi çərçivəsində esse müsabiqəsi keçirilmişdir.**




Müsabiqə “İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq” mövzusu üzrə keçirilmiş və iştirakçıların 3 alt mövzudan birinə müraciət etməsi tövsiyə olunmuşdur: “təhsilin gələcəyi”, “sağlamlığın gələcəyi” və “əməyin gələcəyi”.

Təşkilat Komitəsinin məlumatına görə müsabiqəyə 200-ə qədər müxtəlif məqalələr təqdim olunmuşdur. Müsabiqədə ATU-nun ümumi gigiyena və ekologiya kafedrasının doktorantı Vüsalə Kazımova “Tələbələrin qidalanma rejiminin xüsusiyyətləri və gigiyenik qiymətləndirilməsi” adlı elmi məqaləsilə iştirak etmişdir.

10 noyabr 2018-ci il tarixdə müsabiqəyə yekun vurulmuş və mükafata layiq birinci 3 yerin müəllifləri müəyyənləşdirilmişdir. Bizim doktorant V.M.Kazımova müsabiqədə III yeri tutmuş, Təşkilat Komitəsinin xüsusi setifikatı, üzərində “Ekspo 2025 Bakı” loqotipi olan stolüstü hədiyyə və pul mükafatı ilə mükafatlandırılmışdır.

**ATU-nun mətbuat xidməti**

# Əməkdaşımız Beynəlxalq Konqresdə məruzə edib

**❋ Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Nigar Sultanova ABŞ-da keçirilən “ISAPS 2018” Mayami Konqresində iştirak edib. Konqresə dünyanın bir çox ölkəsindən 3 minə yaxın cərrah qatılıb.**

Qürurverici haldır ki, Nigar Sultanova Estetik Plastik Cərrahların 49-cu Beynəlxalq Konqresində elmi işini də təqdim edib. Onun sözlərinə görə, konqresə 5000 elmi iş göndərilsə də, onlardan yalnız 400-ü təqdimat üçün seçilib. Təsadüfi deyil ki, ATU-nun təmsilçisi həm də konqresin sessiyalarından birində, piyin köçürülməsinə həsr olunmuş bölməsində moderator qismində iştirak edib: “Konqresdə “The Application of Microlipografting for Correction of the Secondary Posttraumatic Enopthalmos” mövzusunda çıxış etdim. Toplantı zamanı dünyanın ən peşəkar plastik cərrahları tərəfindən 64 master-klass təşkil olunmuşdu. Deyə bilərəm ki, təqdim etdiyim iş çox maraqla qarşılandı, çoxlu sualları cavablandırmalı oldum”.

N.Sultanovanın bildirdiyinə görə, konqres olduqca faydalı olub. Burada mütəxəssislər həm təcrübə mübadiləsi aparıb, həm də plastik cərrahiyyədə tətbiq olunan yeni metodikalarla tanış olublar. Konqres yeni ələqələr, dünyanın digər ölkələrindən olan peşəkarlarla münasibətlərin yaradılması baxımından da məhsuldar keçib.



AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**

- Bioloji kimya kafedrası
- Uşaq stomatologiyası kafedrası
- Klinik farmakologiya kafedrası

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-43-23

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**2018-2019-cu tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və sürətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müəllimin bal-reytinq cədvəli.
10. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci, 7-ci və 9-cu bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# Şəkərli diabet xəstəsi üzərində mürəkkəb ürək əməliyyatı uğurla icra edilib

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında 44 yaşlı kişi üzərində mürəkkəb əməliyyat aparılıb. Klinikanın ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri uzman Mirəli Məcidovun icra etdiyi əməliyyat uğurla nəticələnib.**



M.Məcidovun bildirdiyinə görə, xəstə şəkərli diabetdən əziyyət çəkirmiş. Gün ərzində ən azı 2 qutu siqaret çəkən pasiyent son günlər fiziki hərəkət zamanı sinəsində ağrı hiss edib: “Anidən başlayan sinə ağrısı ilə klinikamıza müraciət edib. Müayinələr nəticəsində pasiyentə ürəyin işemik xəstəliyi, sol ana koronarın stenozu diaqnozu qoyuldu. Xəstəni təcili əməliyyata aldıq”.

M. Məcidovun sözlərinə görə, bu, çox təhlükəli xəstəlik hesab olunur. Zamanında aşkarlanmadıqda, fəsadı bilinmədikdə, ani ölümlə nəticələnir: “Normalda bu xəstəliyə əsasən 60 və daha yuxarı yaşlı insanlarda rast gəlinir. Ailədə şəkərli diabet xəstəsi olduğu üçün, pasiyentə də irsən keçib. Əməliyyat zamanı xəstə süni qan aparatına qoşuldu. Əməliyyat bir saat yarım davam etdi”.

“Artıq bu gün bütün dünyada xəstəliklər cavanlaşıb” – deyən uzman M. Məcidov xüsusən də şəkərli diabetdən əziyyət çəkən insanların ayda ən azı bir dəfə check-up müayinədən keçmələrini tövsiyyə edir.

# Göz xəstəlikləri yeni metodika ilə müalicə olunur

**Tədris Cərrahiyyə Klinikasında görmənin terapiyası və reabilitasiyası elm və texnikanın son nailiyyətlərindən hesab olunan metodikaya əsasən aparılır. Oftalmologiya kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikası oftalmologiya şöbəsinin oftalmoloqu Aysel Qəlbinur bildirir ki, görmə analizatorunun periferik sahəsinə işıq effekti yönəldən bu üsullar görmə orqanının hərəki funksiyalarının patologiyası, çəpgözlüyün, ambliopiyanın (tənbəl göz) hər növündə, akkomodasiyanın pozulmalarında göstərişdir.**



A.Qəlbinurun sözlərinə görə, bu məşğələlər ortoptik və pleoptik müalicəni əhatə edir. Ortoptik müalicədə başlıca məqsəd xəstələrdə binokulyar tək görməni təmin etməkdir. Pleoptik müalicə isə əsasən ambliopiyanın aktiv məşğələlərlə müalicəsidir. Bu üsulla torlu qişanın stimulyasiyasına nail olunur, eksentrik fiksasiya problemi aradan qaldırılaraq skotoma ləğv edilir və mərkəzi fiksasiyanın bərpası hədəf alınır.

“Elə müasir avadanlıqlarımız var ki, bunlar hərəki maqnit sahəsi vasitəsilə müxtəlif görmə patologiyalarının müalicəsində aparıcı rol oynayır. Klinikamızda xəstələrə çəpgözlüklərin cərrahi müdaxiləsi ilə yanaşı, digər bütün müalicə metodları: eynək təyini, prizmalar, və s. ortoptik müalicə növləri də tətbiq edilir”.

Qeyd edək ki, göz tənbəlliyi adı ilə tanınan ambliopiya xəstəliyi hər populyasiyada geniş yayılıb. Aysel Qəlbinurun sözlərinə görə, məqsəd az görən gözün görməsini artırmaq, retinada alınan görüntünün aydın olmasını təmin etməkdir: “Eyni zamanda, hər iki gözün bərabər görmə itiliyinin bərpası, çəpliyi olan xəstələrdə alternə fiksasiyanı təmin etmək, hər iki gözdə eyni akkomodasiyanın bərpası, eyni dərəcədə oxumaq sürətini təmin etmək əsas hədəfimizdir”.

Həkim onu da qeyd edir ki, akkomodasiyanın pozulmaları adətən başqa funksional dəyişikliklərlə də müşayiyət olunur: “Ona görə apardığımız görmə reabilitasiyası bir sıra patologiyaların kombinə müalicəsinə də həsr olunur. Bura müxtəlif etiologiyalı akkomodasiya spazmı, astenopiyalar, əsasən kompüterlə iş, miopiya, başlanğıc presbiopiya, müxtəlif mənşəli ambliopiya, gözün əməliyyatdan sonrakı vəziyyəti, funksional skotoma aiddir.”

A.Qəlbinur tətbiq olunan üsulların xəstələrin peşəkar müalicəsinə kömək etdiyini, xüsusilə uşaqlarda yaxşı nəticələr göstərdyini qeyd edib. Bu zaman uşağın ailəsi və həkimin diqqəti sayəsində uşaqların motivasiyasının da mühüm rol oynadığını bildirib.

# Beyin əməliyyatı xəstənin həyatını xilas etdi

**“Adi bir öskürək xəstənin həyatına son qoya bilərdi. Ona görə də təcili beyin əməliyyatı aparmalı olduq”. ATU- nun Tədris Cərrahiyyə Klinikasının neyrocərrahı Fərid Qaralov bu yaxınlarda keçirilən mürəkkəb beyin əməliyyatı haqqında belə deyir.**



Onun sözlərinə görə, xəstədə “CHİARİ tip 1 malformasiyası”, yəni beyincik sallanması adlandırılan problem olub: “32 yaşlı qadın ciddi baş ağrılarından əzyyət çəkirdi. Bu şiddətli ağrılar xüsusilə öskürək nəticəsində ortaya çıxırdı. Bizə müraciət edən pasiyent gecələr yuxuda olduğu zaman tənəffüsün dayanmasından da şikayətlənirdi. Bu isə kifayət qədər ciddi və həyati təhlükəsi olan bir problemdir”.

Neyrocərrah bildirir ki, bu halda beyincikdə həmin sallanmış hissə rezeksiya edilir. Bundan sonra onurğa beyin tam sərbəstləşdirilir, onurğa beyin mayesinin sirkulyasiyası normallaşdırılır.

“Beyində açılan hissədə budun enli fassiyası ilə deffekt plastika olunur. Belə bir əməliyyatla xəstə normal sağlam həyatına dönür”.

Bu mürəkkəb əməliyyat 2 saata yaxın davam edib. F.Qaralov qeyd edir ki, pasiyentin üzləşdiyi xəstəlik kifayət qədər təhlükəli olub. Amma uğurlu əməliyyatdan sonra xəstənin həyatına olan təhlükə aradan qaldırılıb.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin I kurs, $118^{a-10-a}$ qrup tələbəsi Cəfərli Safurə Eldəniz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-8}$ qrup tələbəsi Hüseynova Gülüstan Eldar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsinin dinləyicisi Behzad Nurmomamadinin adına verilmiş dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $783^{a}$ qrup tələbəsi Süleymanov Vüsal Vüqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $782^{a}$ qrup tələbəsi Xəlilzadə Elgün Əkbər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $782^{a}$ qrup tələbəsi Bairamov Avaz Şahin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{a-10}$ qrup tələbəsi Quliyeva Mahirə Mahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $118^{a-8-a}$ qrup tələbəsi Hüseynli Qumru Qurban qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{i-2-a}$ qrup tələbəsi Alhasan Al-Sigar Kadhim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $180^{c}$ qrup tələbəsi Al Saedi Zahraa Abbood oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

II uşaq xəstəlikləri kafedrasının əməkdaşları uzun illər kafedrada çalışmış dosent

**Quliyev Rəhman Davud oğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanova anası

**Lala xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II mamalıq-ginekologiya kafedrasının əməkdaşları II müalicə-profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirovaya qardaşı

**Vüqar Bəydəmirzadənin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları Ruxsarə Hacıyevaya əmisi

**Şahbəndər Hacıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800